# mistik Beşbarmaq
# *mystical Beshbarmag*



azerbaijan

TAKE ANOTHER LOOK

## **Mündəricat**
*Contents*


| | |
|---|---|
| **Azərbaycanın xəritəsi**<br>Map of Azerbaijan | 4 |
| **“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu**<br>Mount Beshbarmag State Historical, Cultural and Natural Reserve | 6 |
| **Ətrafı kəşf edin**<br>Explore The Area | 20 |
| **Səfərinizi planlaşdırın**<br>Plan Your Trip | 22 |
| **Faydalı məlumatlar**<br>Useful Information | 24 |

# salam
# *hello*



**Azərbaycanın milli tarixində böyük əhəmiyyət kəsb edən Beşbarmaq dağı dini-mənəvi destinasiya olmaqla yanaşı, həm də unikal təbiət abidəsi və təbii irs nümunəsidir.**

Beyond being a spiritual destination, Mount Beshbarmag holds special significance in Azerbaijan's national history as a unique site of natural heritage.


RUS
RUS
GÜRCÜSTAN
GEORGIA
Balakən
Balaken
Zaqatala
Zagatala
Qax
Gakh
Şəki
Sheki
Kür çayı
River Kura
Qazax
Gazakh
Şəmkir su anbarı
Shamkir Reservoir
Tovuz
Tovuz
Mingəçevir su anbarı
Mingachevir Reservoir
Şəmkir
Shamkir
Gəncə
Ganja
Mingəçevir
Mingachevir
Daşkəsən
Dashkasan
Yevlax
Yevlakh
ERMƏNİSTAN
ARMENIA
Gədəbəy
Gadabay
Göygöl
Goygol
Naftalan
Naftalan
Bərdə
Barda
Tərtər
Tartar
Kəlbəcər
Kalbajar
Ağdərə
Aghdara
Ağcabədi
Agjabadi
Ağdam
Aghdam
Xankəndi
Khankendi
TÜRKİYƏ
TÜRKİYE
Laçın
Lachin
Şuşa
Shusha
Füzuli
Fuzuli
Sədərək
Sadarak
Şərur
Sharur
Cəbrayıl
Jabrayil
Şahbuz
Shahbuz
Qubadlı
Gubadli
Naxçıvan
Nakhchivan
Zəngilan
Zangilan
Ordubad
Ordubad
İRAN
IRAN

# macəraya aparan yollar

# *roads that lead to adventure*




**İşarələr**
Key

- Hava limanı
  Airport
- Dağ-xizək kurortu
  Winter Resort
- Dəniz limanı
  Port
- Sərhəd-keçid məntəqəsi
  Border Crossing Point
- Beşbarmaq dağı
  Mount Beshbarmag

"BEŞBARMAQ DAĞI" QORUĞU

# əbədi yaddaşımız
# *long legacy*



**Qədimdən Beşbarmaq dağı İpək Yolu qollarının biri üzərində yerləşmiş və Bakıdan şimal istiqamətində mühüm dayanacaq rolunu oynamışdır.**

Situated on one of the branches of the Silk Road, Mount Beshbarmag has served as a waypoint towards the north from Baku since ancient times.

Xəzərin qərb sahilləri bütün tarixi mərhələlərdə strateji əhəmiyyətə malik olmuşdur. Bu sahillərdən ticarət məqsədli, eləcə də hərbi yürüşlər zamanı strateji yollar kimi istifadə edilmişdir. Zirvəsi dəniz səviyyəsindən 555 metr yüksəklikdə yerləşən Beşbarmaq dağı ilə Xəzər dənizi arasındakı düzən ərazi isə ən dar keçid zolağıdır, məhz buna görə ilk müdafiə istehkamı da burada salınmışdır.

The western shores of the Caspian Sea have held vital strategic importance throughout history, used as routes for both trade and military expeditions. The plain area between Mount Beshbarmag and the Caspian Sea is the narrowest passage, leading to the first defensive fortifications being established here. The summit of the mountain is 555 metres above sea level.



# MOUNT BESHBARMAG RESERVE

Bu yerin adı ilk dəfə IX əsr ərəb mənbələrində və orta əsr Avropa səyyahlarının əsərlərində "Barmak" kimi qeyd edilib. Bu da XVIII əsrə qədər Quba xanlığına aid yeddi mahaldan biri olan Barmak mahalının adı ilə əlaqələndirilir.

Maraqlıdır ki, 1858-ci ildə Fransa yazıçısı Aleksandr Düma Beşbarmaq dağının qarşısından keçərkən buradakı karvansara ilə bağlı müəyyən qeydlər etmişdir. Onun qənaətinə əsasən, indi xarabazarlığa çevrilmiş bu tikinti vaxtilə Şah Abbasın tikdirdiyi karvansara olmuşdur.

Müasir yanaşmalara görə, qayaya şərq və qərbdən baxarkən o sanki insan əlinin barmaqlarını xatırladır. Buna görə də bu qayaya "Beşbarmaq" adı verilmişdir.

First mentioned in the 9th century by Arab sources, and later in the works of medieval European travellers, the site was recorded as 'Barmak.' This name is associated with the Barmak area, one of the seven districts of the Guba Khanate until the 18th century.

In 1858, French writer Alexandre Dumas made certain observations about a caravanserai at the foot of Mount Beshbarmag. He believed that this building, which is now ruined, was originally a caravanserai built by Shah Abbas.

Modern interpretations suggest that the rock resembles the fingers of a human hand when viewed from the east and west, hence the name 'Beshbarmag' (that translates to 'five fingers').

# “BEŞBARMAQ DAĞI” QORUĞU



“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu Prezidentin 8 iyun 2020-ci il tarixli sərəncamına əsasən yaradılıb. Qoruğun ərazisi Siyəzən rayonunun Qalaşıxı kəndində yerləşən Beşbarmaq dağı təbiət abidəsinin ərazisini əhatə edir. Həmçinin Azərbaycanın nadir təbiət abidələrindən olan Beşbarmaq dağının ətrafında dövlət mühafizəsinə götürülmüş bir sıra tarix və mədəniyyət abidələri yerləşir. Bura yolunuz düşsə, qoruq ərazisində Son Tunc–İlk Dəmir dövrünə aid yaşayış yeri, Xızırzində piri, ilk orta əsrlər və XV–XVII əsrlərə aid qala və karvansara qalıqlarını görə bilərsiniz. İlk orta əsrlərə aid Beşbarmaq paralel müdafiə səddi isə “Xəzər sahil mühafizə konstruksiyaları” daxilində 24 oktyabr 2021-ci ildə **UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına** daxil edilib.

Mount Beshbarmag State Historical, Cultural and Natural Reserve was established by a presidential decree on 8 June 2020, encompassing Mount Beshbarmag itself, located in the village of Galashikhi in Siyazan District. Surrounded by several other state-protected historical and cultural attractions, Mount Beshbarmag is one of Azerbaijan’s rarest natural phenomena. Beshbarmag’s parallel defensive wall from the Early Middle Ages, part of the ‘Caspian Shore Defensive Constructions,’ was included in **UNESCO’s Preliminary List of Cultural Heritage in Need of Urgent Safeguarding** on 24 October 2001. Within the reserve, there are Late Bronze Age to Early Iron Age settlement sites, Khizirzinda Pir, remains of fortresses from the Early Middle Ages and the 15th-17th centuries, and caravanserai ruins.

Aparılan arxeoloji tədqiqatlar zamanı sübut olunub ki, Beşbarmaq qalası orta əsrlərdə müxtəlif dövrlərdə uzunmüddətli yaşayışın olduğu qala-şəhər olmuşdur. Əldə olunmuş arxeoloji materialların əksəriyyəti XVII–XVIII əsrlərə aiddir. Bu da onu göstərir ki, Beşbarmaq qalası həmin dövrün əvvəllərində Səfəvi–Osmanlı və Səfəvi–Rusiya müharibələri zamanı ciddi dağıntılara məruz qalmışdır.





Archaeological excavations have proven long-term habitation in the Beshbarmag fortress area during various medieval periods, indicating it was a stronghold settlement. Most of the archaeological materials date back to the 17th-18th centuries. This suggests that Beshbarmag was severely damaged during the Safavid-Ottoman and Safavid-Russian wars.



"BEŞBARMAQ DAĞI" QORUĞU

# təkrarolunmaz irs

# *unique heritage*



**Beşbarmaq dağı Azərbaycanın əsas turizm dəhlizlərindən biri hesab edilən şimal marşrutu üzərində yerləşən önəmli və maraq doğuran məntəqələrdən biridir.**

Mount Beshbarmag is considered one of the key points of interest on the Northern Route, one of Azerbaijan's main tourism corridors.

Azərbaycanda həm milli, həm də regional səviyyədə ətraf mühitin mühafizəsi, eləcə də ekoloji məsələlərə xüsusi diqqət göstərilir. Belə ki, 2024-cü ilin **"Yaşıl dünya naminə həmrəylik ili**" elan edilməsi, **"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"**də 5 prioritetdən birinin təmiz ətraf mühit və yaşıl artım olaraq bəyan edilməsi bu siyasətin göstəriciləridir.

Bu mənada Beşbarmaq dağının ərazisi unikal təbii irs nümunəsi olduğuna görə təbiət qoruğu kimi mühafizə olunur. Ərazinin qoruq elan edilməsi iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni dəstəkləyən dövlətimizin ətraf mühit və təbii irsin qorunmasına verdiyi səmərəli töhfədir. Bu addım Beşbarmaq dağının qorunması və təbliğinə imkan yaradır. Ərazidə aparılmış arxeoloji qazıntılar gələcəkdə Beşbarmaq dağının dini-mənəvi destinasiya, unikal təbiət abidəsi kimi təbliği ilə yanaşı, həm də arxeoturizm destinasiyası kimi təbliğinə imkan verəcək.

Azerbaijan gives special attention to environmental protection and ecological issues, both nationally and regionally. Results of this policy can be seen in the declaration of 2024 as **Green World Solidarity Year** and the announcement of 'clean environment and green growth' as one of the five priorities of **Azerbaijan 2030: National Priorities for Socio-Economic Development.**

As a prime example of natural heritage, Mount Beshbarmag is also preserved as a nature reserve. The declaration of the area as a reserve supports the global fight against climate change and reflects the state's commitment to protecting the environment and natural heritage. This step facilitates the preservation and promotion of Mount Beshbarmag. Archaeological work in the area continues to allow for the further development of Mount Beshbarmag, not only as a destination for religious and spiritual pilgrims, and a unique natural site in its own right, but also as a destination for archaeological tourism.

# “BEŞBARMAQ DAĞI” QORUĞUNUN XƏRİTƏSİ



# MAP OF MOUNT BESHBARMAG RESERVE




- **Beşbarmaq dağı**
  Mount Beshbarmag
- **Meşə zolağı**
  Woodland
- **Mağara**
  Cave
- **Tarixi qalıqlar**
  Historical Ruins
- **Arxeoloji ərazi**
  Archaeological Site
- **Qədim qəbiristanlıq**
  Ancient Cemetery
- **Kənd**
  Village
- **Pir**
  Holy Site
- **Məscid**
  Mosque
- **Yamac paraşütü ərazisi**
  Paragliding Area
- **Dağ-piyada marşrutu**
  Mountain Hiking Route
- **Qayayadırmanma ərazisi**
  Rock Climbing Area
- **Quş müşahidəsi nöqtəsi**
  Birdwatching Spot
- **Quşların sayılma ərazisi**
  Bird Counting Area
- **Körpü**
  Bridge
- **Yeraltı tunel**
  Tunnel
- **Dəmir yolu stansiyası**
  Railway Station
- **Dəmir yolu**
  Railway
- **Yerləşmə obyekti**
  Accommodation
- **İaşə obyekti (qida)**
  Food Outlet
- **İaşə obyekti (içki)**
  Drinks Outlet
- **Market**
  Grocery Store
- **Yanacaqdoldurma məntəqəsi**
  Petrol Station
- **Parkinq**
  Parking
- **Tualet**
  Toilet

"BEŞBARMAQ DAĞI" QORUĞU

# gerçəkləşən niyyətlər

# *wishes come true*








**Beşbarmaq dağının məşhur olmasının səbəblərindən biri də xalq inancları və dağın qeyri-adi görünüşü ilə bağlıdır. Erkən orta əsrlərdən etibarən bura dini ziyarətgah kimi müqəddəs bilinən yer olub.**

Mount Beshbarmag's fame is fuelled by local beliefs and the mountain's extraordinary appearance. From the Early Middle Ages, it has been considered a sacred place of worship.

Beşbarmaq dağında yerləşən pir bu günədək insanların müqəddəs ziyarətgahlarından biridir. Əfsanəyə görə, "dirilik suyu" axtarışında olan Xıdır peyğəmbər bu dağın zirvəsindəki bulaqdan su içir və ölməzlik qazanır. Bu səbəbdən Beşbarmaq dağı xalq arasında "Xızırzində dağı" kimi tanınır. Xızırzində adının tərkibindəki zində sözü "sağ", "diri" mənasını verir.

Bu gün insanlar dərdlərinə dərman tapmaq ümidi ilə dağın təpəsindəki pirə gəlib dualar edirlər. Bəzi ziyarətçilər dağın ətəyində kiçik daşları üst-üstə qoyaraq dilək tuturlar. İnanca görə, daşlar dağılmırsa, onların arzuları reallaşır.

The shrine located at the top of Mount Beshbarmag remains one of Azerbaijan's holiest pilgrimage sites to this day. According to legend, Prophet Khidr, in search of the 'water of life,' drank from a spring at the summit and gained immortality. Hence, Mount Beshbarmag is known among the people as 'Mount Khizirzinda.' The word 'zinda' means 'alive' or 'living.'

Today, people bring their troubles to the shrine at the top of the mountain to pray. Some pilgrims place small stones on top of each other at the foot of the mountain and make a wish. According to belief, if the stones do not fall, their wishes are granted.

"BEŞBARMAQ DAĞI" QORUĞU

# quş müşahidəsi
# *birdwatching*



**Qafqaz dağları ilə Xəzər dənizi arasından keçən Beşbarmaq dağı miqrasiya dəhlizi (beynəlxalq ekspertlər tərəfindən "dar boğaz") adlandırılır.**

Wedged between the Caucasus Mountains and the Caspian Sea, Mount Beshbarmag is a migration corridor referred to as a 'bottleneck' by international experts.

## Ən uyğun dövrlər
*when to visit*

Yaz və payız
Spring and autumn.







Təbii landşaft səbəbi ilə Beşbarmaq dağı quş müşahidəçiləri üçün unudulmaz təcrübə vəd edir. Xüsusən yaz və payız aylarında bu ərazidən hər gün 200000-dən çox quş miqrasiya edir. Burada gün ərzində 20-yə yaxın yırtıcı quşla (məsələn: imperator qartalı, çığırğan xallı qartal, qara kərkəs, çöl belibağlısı, çöl sarı, şahin və digərləri) bərabər, həmçinin adi bəzgək, çöl haçaquyruğu, boz sığırçın, kiçik qarabatdaq, kiçik toraǧayı və digər bir çox böyük quş dəstələrini görmək mümkündür. Dəhlizdən minlərlə ördəkkimilər, vağlar və cüllütlər keçir. Aralarında nadir tapıntı kimi qiymətləndirilən bəzi sərçəkimilər isə burada istirahət edirlər. Eyni zamanda Beşbarmaq dağının zirvəsinə qalxaraq qayalıq fitçisi, qayalıq sərçəsi, qaraboyun çaxraqçıl və bəzən qırmızıqanad dırmanca da rast gəlmək mümkündür.

Payız aylarında (pik mövsümdə), həmçinin yazın ortalarında yüzlərlə quş müşahidəçisi Beşbarmaqda möhtəşəm quş miqrasiyasını izləmək üçün Azərbaycana gəlir. Bakıdan cəmi 95 km məsafədə yerləşən Beşbarmaq ərazisinə bir gün içərisində gedib qayıtmaq olar. Bundan başqa, çadır aparıb kempinq etmək, yaxud yaxınlıqdakı hotel və qonaq evlərində gecələmək olar. Beşbarmaq Böyük Qafqaz dağlarına gedən yolda dayanacaq da ola bilər. Bəzən bu ərazi quş müşahidəsi marşrutunun bir hissəsi kimi, bəzən də müstəqil bir marşrut kimi planlaşdırılır.

The natural landscape of Mount Beshbarmag offers an unforgettable experience for birdwatchers. Especially during the spring and autumn seasons, over 200,000 birds migrate through this area daily. Throughout the day, one can see around 20 species of birds of prey (including Imperial Eagle, Greater Spotted Eagle, Black Vulture, Pallid Harrier, Long-legged Buzzard and Peregrine) as well as large flocks of Little Bustard, Black-winged Pratincole, Rosy Starling, Pygmy Cormorant, Calandra Lark and many more. Thousands of ducks, herons and waders also pass through the corridor. Some rare sparrows rest here, considered particularly special finds. Additionally, climbing towards the mountain's peak, one can encounter Rock Nuthatch, Rock Sparrow, Finsch's Wheatear and sometimes also Wallcreeper.

During the peak autumn period, as well as in mid-spring, many birdwatchers come to Beshbarmag to enjoy the mass migrations. Located only 95 km from Baku, it is possible to make a day trip to Beshbarmag. Additionally, one can camp by bringing a tent or stay overnight at nearby hotels and guesthouses. Beshbarmag can also serve as a stop on the way to the Greater Caucasus Mountains. Sometimes it is included as part of a birdwatching route, while at other times it can be a standalone route.

"BEŞBARMAQ DAĞI" QORUĞU

# yamac paraşütü
# *paragliding*



**Beşbarmaq dağı ərazisində keçirilən tandem yamac paraşütü insanı sanki göyün yeddinci qatında hiss etdirir. Burada səmada qartal kimi süzmək istəyənlərin, adrenalin həvəskarlarının arzuları gerçəkləşir.**

Soaring in a tandem paraglider over Mount Beshbarmag makes you feel like you are in seventh heaven. This is where the dreams of adrenaline enthusiasts – or those who just want to soar like an eagle – come true.

Dənizə yaxın və yüksək olduğuna görə Beşbarmaq ərazisi bu idman növü üçün ən təhlükəsiz ərazi sayılır. Dağın ətəyindəki toplanış məntəqəsində hər kəs toplandıqdan sonra maşınlarla yüksəkliyə qalxılır və avadanlıqlar hazırlanmağa başlanılır. Bu idman növündə əsas şərt hava şəraitinin normal olmasıdır.

Yamac paraşütü ilə uçuşda yaşı 16-dan yuxarı olan hər bir kəs iştirak edə bilər. Heç bir təcrübəsi olmayan həvəskarlar tandem üsulunu seçə bilərlər. Bu halda siz təcrübəli pilotla birlikdə eyni paraşütdə uçacaqsınız. Solo uçuşlar isə artıq paraplan təcrübəsi olanlar üçündür.





Due to its altitude and proximity to the sea, Beshbarmag is considered one of the safest areas for this sport. After gathering at the collection point at the foot of the mountain, participants are transported higher up by car and the equipment is prepared. The main prerequisite for this sport is suitable weather conditions.

Anyone aged 16 or over can try paragliding. Amateurs without any experience can choose a tandem flight, in which you glide together with an expert. Solo flights are for those who already have paragliding experience.



ƏTRAFI KƏŞF EDİN

# füsunkar guşələr

# *enchanting corners*

**Beşbarmaq ətrafında bir çox maraqlı yerlər var. Qoruğa kifayət qədər yaxın yerləşən Xızı rayonunun nadir heyrətamiz mənzərələri də turistləri biganə qoymayacaq.**

There are many fascinating places around Beshbarmag. The unique and stunning landscapes of Khizi District, located within easy reach of the reserve, are sure to captivate tourists.

Dəbdəbəli **Qalaaltı Hotel & SPA**-dan bir neçə kilometr aralıda, dağın zirvəsində yerləşən **Çıraqqala** qədim Sasanilər dövrünə aid olan müşahidə qülləsinin qalıqlarından ibarətdir. V əsrdə tikildiyi güman edilən bu qala vaxtilə Xəzər dənizinin sahilindən Böyük Qafqaz dağlarına qədər geniş ərazini əhatə edən **Gilgilçay** müdafiə səddinin bir hissəsi olmuşdur. Buradan bir neçə kilometr şimal-qərbdə, Böyük İpək Yolu üzərində yerləşən qədim **Şabran** şəhərinin (Şabran rayonunun Şahnəzərli kəndində yerləşir) xarabalıqları və qalıqları da ziyarət edilməli olan yerlər siyahısındadır. Yaxınlıqdakı **Xızı dağları** və **Altıağac Milli Parkında** isə quş müşahidəçiliyi üçün yerlər də mövcuddur.

The luxurious **Qalaalti Hotel & SPA** is just a few kilometres from **Chiraggala**, an ancient Sassanid-era watchtower perched on a rocky peak. Believed to have been built in the 5th century, this fortress was once part of the **Gilgilchay** defensive wall, which stretched from the Caspian Sea coast to the Greater Caucasus Mountains. A few kilometres to the north-west, the remnants of the ancient city of **Shabran**, located in the village of Shahnazirli in Shabran District, are also on the list of must-visit places. The nearby **Khizi Mountains** and **Altiaghaj National Park** also offer scenic spots for birdwatching.





# xüsusi marşrut
# *a special route*



**Bakıdan:**
*From Baku*

**Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Siyəzən istiqamətində hərəkət edən avtobuslardan istifadə etmək olar. Siyəzənin Beşdam kəndi yaxınlığından dağa doğru gedən yolu da qoruğa məxsus məlumat lövhəsinin göstərdiyi istiqamət üzrə şəxsi avtomobil və ya taksi vasitəsilə getmək olar.**

Buses operate from Baku International Bus Terminal Complex to Siyazan District. Near the village of Beshdam in Siyazan District, you can follow directions indicated on the information board towards 'Beshbarmag State Historical, Cultural and Natural Reserve' to reach the mountain by car or taxi.

**Bakı–Beşbarmaq**
*Baku-Beshbarmag*

**məsafə 95 km**
distance 95 km

**1 s 30 dəq**
1 h 30 min



**Siyəzəndən**
*From Siyazan*

Siyəzən rayon Avtovağzal ərazisindən isə Bakı istiqamətində hərəkət edən avtobuslardan və Siyəzən rayonu Zarat kəndinə gedən marşrut xəttindən (nəqliyyat vasitələri 1 saatlıq intervalla hərəkət edir) istifadə etmək olar. Hər iki halda Siyəzənin Beşdam kəndi yaxınlığından dağa doğru gedən yolu qoruğa məxsus məlumat lövhəsinin göstərdiyi istiqamət üzrə şəxsi avtomobil və ya taksi vasitəsilə getmək olar.

From Siyazan District Bus Terminal, you can take buses heading towards Baku and the route to Zarat Village in Siyazan District (that operate at one-hour intervals). In both cases, near Beshdam Village you can follow directions indicated by the reserve information board towards the mountain by car or taxi.

**Siyəzən–Beşbarmaq**
*Siyazan-Beshbarmag*

**məsafə 15 km**
distance 15 km

**30 dəq**
30 min

# salam Azərbaycan
# *salam Azerbaijan*




## Viza
*Visa*

Bir çox ölkələrin vətəndaşlarına viza gəlişdə verilir, digərləri isə **evisa.gov.az** portalından istifadə edərək 3 gün ərzində elektron viza ala bilərlər. Qalan hər kəs viza üçün Azərbaycan Respublikasının səfirliyinə müraciət etməlidir. Səyahətə çıxmazdan əvvəl buna dair ən son tələbləri yoxlamağınız tövsiyə edilir.

Some nationalities are issued a visa on arrival, while many others can get an e-visa within 3 days via **evisa.gov.az**. All others need to apply for a visa at their nearest Embassy of the Republic of Azerbaijan. Please check the latest requirements before booking your trip.

*COVID-19 pandemiyası dövründə səyahətlərə dair ən son məlumat üçün **azerbaijan.travel/covid-19-en** veb-saytına baxın*
*For the latest information on travel during the COVID-19 pandemic, see **azerbaijan.travel/covid-19-en***

**Ölkə ərazisi** / Country Size

# 86,600 km²

**Əhali** / Population

# 10 mln




## Dil

*Language*

Dövlət dilimiz türk dillərinə mənsub Azərbaycan dilidir. Əhalinin əksəriyyəti ingilis dilini də başa düşür. Rus dili isə xüsusilə Bakıda geniş istifadə edilir.

Our state language is Azerbaijani, which is similar to Turkish. Basic English is understood by most of the population. Russian is widely known, especially in Baku.

## Pul

*Money*

Kart ödənişləri əksər mağaza və restoranlarda qəbul edilir. Mastercard/Visa bankomatları ölkənin bütün böyük şəhərlərində mövcuddur. Milli valyutamız manat-dır (AZN).

Card payments are accepted at most shops and restaurants. Mastercard/Visa ATMs are widely available in all main cities and towns. The manat (AZN) is our national currency.

## Nə vaxt ziyarət etməli
*When to visit*

| | |
|---|---|
| **Dek-Mar:**<br>Dec-Mar: | **Soyuqdur. Əsl xizək sürmək havasıdır.**<br>Cold but perfect for skiing. |
| **Apr-İyun:**<br>Apr-Jun: | **Havalar istiləşdiyinə görə artıq dağlara tərəf gəzintiyə yollanmaq da olar.**<br>Getting warmer so try walking in the foothills. |
| **İyul-Avq:**<br>Jul-Aug: | **Çox isti olsa belə, dağlarda hayking və ya Xəzər sahilində istirahət üçün mükəmməl zamandır.**<br>Very warm and ideal for hiking in the high mountains or relaxing on the Caspian coastline. |
| **Sen-Okt:**<br>Sep-Oct: | **Hava hələ də istidir. Şəhərdə gəzintilər və bölgələrə səyahət üçün idealdır.**<br>Still warm so perfect for both city exploring and trips to the regions. |
| **Noy:**<br>Nov: | **Payızın rəngarəng mənzərələrindən zövq alın, lakin isti geyinin!**<br>Enjoy the stunning colours in the countryside but wear layers! |

## Saat qurşağı
*Time Zone*

Biz Qrinviç Orta Vaxtından (GMT) 4 saat irəlidəyik, bununla belə, yayda saatları irəli çəkmirik. Məhz bu səbəbdən qışda Qərbi Avropadan 3 saat irəlidə olduğumuz halda, aprel–oktyabr aylarında bu fərq 2 saata enir.

We're 4 hours ahead of GMT but we don't put the clocks forward in summer, so while we're 3 hours ahead of Western Europe in winter, that drops to 2 hours in April-October.

## Din
*Religion*

Biz dünyəvi ölkə olsaq da, əhalinin əksəriyyəti İslam dininə etiqad edir. İslamda riayət edilməli olan geyim qaydaları tətbiq edilmir. Spirtli içkilərin istifadəsi qadağan deyil.

While we are a secular country, most of the population follows Islam. Muslim dress code is not enforced. Alcohol is widely available.

## Qonaqlama
*Accommodation*

Dəbdəbəli və orta səviyyəli hotellərdən başlayaraq, kənd yerlərində bunqalov evlər, regionlarda motellər və hətta fərdi evlərə qədər geniş çeşidli seçimlərimiz var.

We have a complete range of options, from luxury and mid-range hotels to rural ensuite bungalows, provincial motels and even private homestays.

## Nəqliyyat qiymətləri
*Transport Prices*

Avtobusda və Bakı metrosunda bir gediş üçün sərnişindaşıma üzrə tarif 50 qəpikdir. Alternativ seçim olaraq taksi xidməti də fəaliyyət göstərir.

On the bus and Baku Metro one journey costs 50 gepiks. Taxis are also widely available as an alternative option.

## Sürücülük
*Driving*

Beynəlxalq sürücülük vəsiqəsi tələb olunur. Bakıda avtomobil icarəsi tədricən artır.

An international driving licence is required. Car rental is increasingly available in Baku.

## Telefon
*Phoning*

Ölkə kodu +994-dür, beynəlxalq zənglər üçün əvvəlcə 00 kodunu yığmaq lazımdır.

The country code is +994, the dial out code from Azerbaijan is 00.

## İnternet
*Internet*

Hotellər Wi-Fi bağlantısı ilə tam təchiz olunub və böyük hotellərdə də ən azı bir neçə kompüterin olduğu kompüter otaqları olacaq. Həmçinin Bakıda və ətraf rayonlarda bir çox kafe və restoranlarda Wi-Fi pulsuzdur. Provayderlər 4G mobil şəbəkələri vasitəsilə internetə daxil ola bilməyiniz üçün nisbətən ucuz internet paketləri təklif edirlər.

Hotels are fully equipped with Wi-Fi throughout, and big hotels will also have business centres with at least a few computers. Also, Wi-Fi is free in many cafés and restaurants across Baku and beyond. Mobile phone providers offer relatively inexpensive internet packages so that you can access the web via 4G mobile networks.


AZERBAIJAN
AIRLINES

azerbaijan.travel

ExperienceAZE

experienceazerbaijan

azerbaijan

TAKE ANOTHER LOOK

broşürü yükləmək üçün **QR kodu skan edin**
**scan the QR code** to download this brochure

tiraj / circ.: 000
Avqust / August 2024

**Nəşr:**
Azərbaycan Turizm Bürosu
Üzeyir Hacıbəyli küçəsi 134

Published by:
Azerbaijan Tourism Board
134 Uzeyir Hajibeyli Street
Baku AZ1010, Azerbaijan